# «ASAN xidmət» Qəbələdə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, «ASAN xidmət» mərkəzlərinin təsis edilmədiyi regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yarar-




lanmalarının təmin edilməsi üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş irihəcmli xüsusi avtobuslar səyyar formada regionlarda əhaliyə xidmətlər göstərməkdə davam edirlər.

Artıq Quba şəhərində Quba, Qusar və Xaçmaz, Şirvan şəhərində Şirvan və Hacıqabul, Sabirabad rayonunda Sabirabad və Saatlı, Şamaxı şəhərində Şamaxı, Qobustan və Ağsu, Salyan rayonunda Salyan və Neftçala, İsmayıllı rayonunda İsmayıllı, Astara rayonunda isə Astara rayonunun sakinlərinə «ASAN səyyar xidmət» göstərilmişdir.

Avqust ayının 1-dən isə Qəbələ rayonunun sakinləri «ASAN səyyar xidmət»dən yararlanmağa başlamışlar.

Avqustun 15-dək davam edəcək səyyar xidmətlər Azərbaycan Respublikasının Ədliyyə və Daxili İşlər nazirlikləri, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur.

«ASAN səyyar xidmət»in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

**Foto Səhrab UMUYEVİNDİR.**

# Qəbələdə su-kanalizasiya sisteminin yenidən qurulması davam edir

Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması işləri sürətlə davam edir.

Layihəyə uyğun olaraq, suötürücü qovşaq, su anbarları tikilmiş, anbarlararası boru xətləri çəkilmiş, subartezian quyuları qazılmışdır. Qəbələnin şimalındakı Dəmiraparan çayının sahilində suqəbuledici kompleks—hər birinin tutumu 1000 kubmetr olan iki su anbarı, xlorator qurğusu və laboratoriya binasının inşası başa çatdırılmışdır.

Gələcəkdə 5 quyudan saniyədə 62,5 litr su çıxarılacaq ki, bu da istehlakçıların tələbatını tam ödəməyə imkan verəcək. Podratçı şirkət suyun əhaliyə öz axarı ilə verilməsini təmin etmək üçün hündür yerlərdə 6 yeni anbar inşa edir.

Hazırda «Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin ikinci mərhələsi həyata keçirilir. Bu günlər şəhərin Sahil küçəsində plastik borularla 2.500 poqon/metr kanalizasiya xəttinin çəkilişi, 2 subartezian quyusunun qazılması işləri başa çatmışdır. «Qaraçay», «Duruca» su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür.

# Sevinc anları

Aydınqışlaq kənd sakini Sevgili Əzizova Qəbələ Rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinə (UADM) müraciət edərək böyrək xəstəliyi ilə əlaqədar Bakı şəhərində uroloji xəstəxanada neçə aydır xəstə yatdığını, tam imkansız və tənha olduğunu bildirmişdir. Mərkəz əməkdaşları Sevgili xanımın həyat şəraiti ilə tanış olmaq məqsədilə onun yaşadığı Aydınqışlaq kəndinə səfər etdi. Səfər zamanı faktların doğru olduğu, evinin 120 metr məsafəsindən qaz xətti keçməsinə baxmayaraq indiyədək evinə qaz xəttinin çəkilmədiyi, hətta evinin seyvanı olmadığından yağan yağışın evin içərisinə qədər düşdüyü müəyyən edildi.

Bu barədə Qəbələ UADM-in direktoru Rəna Mahmudovaya məlumat verildi. R. Mahmudovanın köməkliyi və təşkilatçılığı, rayonun xeyirxah insanlarının maddi və mənəvi köməkliyi ilə Ramazan bayramı ərəfəsində Sevgili xanımın evinə qaz xətti çəkildi. Bayram ərəfəsində çəkilən qaz xətti Sevgili xanıma bir növ bayram hədiyyəsi oldu. (qeyd edək ki, hələlik mətbəxi olmadığından qaz peçi müvəqqəti yerləşdirilmişdir. 15 kvm. olan üstü örtülmüş mətbəxin taxtalanması üçün yardıma ehtiyac var).

Qaz xətti istifadəyə verilən gün Sevgili xanım bu işə köməyi dəyən, ona maddi və mənəvi dəstək olan həmyerlilərdən Faiq İbrahimova, Minarə Kərimovaya, Tofiq Məmmədova, Tofiq Allahverdiyevə, qaz istismar sahəsinin rəisi Sübhi Bayramova, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoruna və kollektivinə təşəkkürünü, minnətdarlığını bildirdi.

Belə bir deyim var: Bir şam öz odu ilə digər şamı yandırarsa işığı əksilməz.

Gəlin birlikdə əlsiz-ayaqsızlara, tənhalara, xəstələrə, ehtiyacı olanlara Allah rizası üçün arxa və kömək olaq.

**Sevil MƏMMƏDOVA,**
**Qəbələ UADM-in əməkdaşı.**

# Ödənişli yollar sisteminin tətbiqi ilə bağlı araşdırmalar aparılır

Azərbaycanda İpək yoluna (Bakı—Gürcüstan sərhədi) paralel yeni avtomobil yolu çəkiləcək və bu yol ödənişli olacaq. Bu məsələ Nəqliyyat Nazirliyinin ödənişli yollara dair həyata keçirməyi nəzərdə tutduğu layihələr arasında yer alıb.

Məsələ ilə bağlı açıqlama verən Nəqliyyat Nazirliyi Katibliyinin rəisi Namiq Həsənov bildirib ki, qurum ilk olaraq hələlik bu varianti nəzərdən keçirir: "Ödənişli yollar dünyanın hər yerində var. Bizdə də belə yollar var, lakin hələ ki onlardan istifadəyə görə ödəniş tətbiq edilməyib". N.Həsənovun sözlərinə görə, ilkin mərhələdə şəhərin tarixi yerlərində yolların ödənişli edilməsi düşünülür: "Bu həm avtomobil yolları üçün xüsusi bir büdcənin əmələ gəlməsinə, həm də sərnişinlərin gediş-gəlişinin asanlaşmasına yardım edəcək".

# Doğma ölkəmizdə

## Ölkənin ixrac potensialı artmaq üzrədir

Azərbaycanda İxracın investisiyaları Təşviqi Fondundan verilən məlumata görə son 10 ildə ölkədə ixrac potensialı əhəmiyyətli şəkildə artıb. Qeyd olunan müddət ərzində xarici ticarət dövriyyəsinin 8,8, o cümlədən qeyri-neft ixracı 6,5 dəfə yüksəlmişdir. Əgər10 il bundan əvvəl Azərbaycan 80 ölkə ilə ticarət əməliyyatları aparırdısa hazırda bu rəqəm 155-ə çatıb.

Artıq bu gün Azərbaycan məhsulları ənənəvi bazarlarla yanaşı ABŞ, Avstraliya, Yeni Zellandiya və bir sox Şərqi Asiya ölkələrinə göndərilir.

## İş yerləri artır, işsizliksə azalır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 10 il bundan əvvəl ölkədə işsizliyin aradan qaldırılmasını ən əsas vəzifə kimi qayşıya qoymuşdur. Nəticə isə belədir ki, ötən bu illər ərzində 1 milyon 180 min yeni işyeri açılmışdır. Təkcə bu ilin 6 ayı ərzində yeni iş yerlərinin sayı 55 minə çatmışdır. Bu iş yerlərinin 45 mini daimi iş yeridir.

Statistika komitəsinin verdiyi məlumata görə iş yerlərinin 72,2 faizi regionlarda yaradılıb. 95,2 faizi özəl sektorun payına düşüb.

Birinci yarımilin sonuna ölkədə iqtisadi fəal əhalinin sayı 4 milyon 720,9 min nəfər olmuşdur. Onlardan 4 milyon 480,6 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olanlar təşkil edib.

İyun ayının 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1 milyon 480 min nəfərdir. O cümlədən iqtisadiyyatın dövlət bölməsində 896,2 min nəfər, qeyri-dövlət bölməsində 583,8 min nəfər çalışıb.

İlin əvvəlindən Azərbaycanda işsizliyin səviyyəsi 5 faiz təşkil edirdi. Bu göstərici birinci yarım ilin sonuna doğru azalıb, ilin sonuna daha da azalması gözlənilir. Halbuki bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 10-15 faiz təşkil edir, hətta 25 faizə çatır.

## İKT sektoruna investisiya qoyuluşu artır

Cari ilin birinci yarısında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin müəssisə və struktur bölmələrinin informasiya-kommunikasiya texnologiyaları sektoruna yatırdığı investisiyaların həcmi 29,98 milyon manat olmuşdur. Bu dövrdə İKT sektoruna ümumilikdə 71,2 milyon manat həcmində investisiya qoyulmuşdur.

Yanvar-iyul aylarının yekunlarına görə İKT sektoru və poçt rabitəsi üzrə gəlirlərin həcmi 2012-ci ilin anoloji dövr göstəricisi müqayisədə 10,5 faiz artaraq 756,8 milyon manat təşkil etmişdir.

**N. ATAKİŞİYEV.**